# "NAXÇIVANIN TÜRK-İSLAM MƏDƏNİYYƏTİ ABİDƏLƏRİ :TARİXDƏ VƏ GÜNÜMZDƏ" BEYNƏLXALQ KONFRANSININ MATERİALLARI

**FİZZƏ QULİYEVA**
AMEA Naxçıvan Bölməsi
fizze25@mail.ru

## NAXÇIVANIN TÜRK-İSLAM MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNDƏKİ MEANDR MOTİVİNİN TARİXİ KÖKLƏRİ

*Biz gedirik ancaq qalır ruzigar,*
*Biz ölürük əsər qalır yadigar!*

*Azərbaycanda Türk-İslam mədəniyyətində IX əsrdən başlayan yüksəliş monumental sənət əsərlərinin meydana çıxmasını şərtləndirmişdir. Türk-İslam mədəniyyətinə aid abidələr, xüsusilə türbələr memarlıq həllinin mükəmməlliyi, ornamental motivlərin zənginliyi ilə fərqlənir. Türk-İslam mədəniyyəti abidələrində rast gəlinən zəngin ornament motiflərindən biri meandrdır. Tarixi kökləri qədim dövrlərə dayanan meandr motivinə müxtəlif sənət nümunələri üzərində rast gəlmək olur. Araşdırmalara əsasən deyə bilərik ki, istər qədim sənət nümunələrində, istərsə də Türk-İslam sənətində təsvir olunan meandr ornament polisemantik məzmuna malik olmuş, xalqımızın inanclarını əks etdirmişdir. Müsəlman mədəniyyətinin çiçəkləndiyi dövrdə isə bu tip ornamentlərə həm də islami məzmun verilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan, Türk-İslam memarlığı, türbə, abidə, ornament, motif, meandr*

Möminə xatın türbəsində həkk olunan bu sözlərdə böyük hikmət var. Naxçıvan diyarında mövcud olan hər bir abidə, o cümlədən İslam dövrünə aid abidələr xalqımızın qədim mədəniyyətinin yadigarıdır. Azərbaycanda Türk-islam mədəniyyətində IX əsrdən başlayan yüksəliş monumental sənət əsərlərinin meydana çıxmasını şərtləndirmişdir. Türk-islam mədəniyyətinə aid abidələr, xüsusilə türbələr memarlıq həllinin mükəmməlliyi, ornamental motivlərin zənginliyi ilə fərqlənir (4, s. 92-95; 8, s. 48-49; 9, 120-184). Bu mədəniyyət abidələri üzərindəki naxışların araşdırılması onların xalqımızın qədim tarixindən süzülüb gələn ənənələrə əsaslandığını deməyə əsas verir. Mədəniyyət abidələrimiz üzərindəki ornamental motivlərin hamısını bir məqaləyə sığışdırmaq olduqca çətin olduğundan, biz bu məqalədə yalnız bəzi motivlərə yer verməyi əsas götürürük.

**Şəkil 1. Möminə xatın türbəsində meandr motivi**




Naxçıvanın Türk-islam mədəniyyəti abidələrində çox rast gəlinən ornamental motivlərdən biri meandrdır. Bu motivə Naxçıvan şəhərində tikilən Türk-islam mədəniyyətinin zəngin memarlıq abidələrində, Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi türbələrin xarici səthində rast gəlmək mümkündür. Möhtəşəmliyi ilə göz oxşayan Möminə xatın türbəsində meandr motivi gövdənin cənub üzündə qapıdan sağa ikinci səthinin kənarlarında (Şəkil 1, 1) və stalaktitlərdə kərpicdən yığılmışdır (Şəkil 1, 2). Bu ornament memarın özünəməxsus bacarığı sayəsində qalın və incə kərpiclərin kombinasiyası ilə yığılmışdır. Meandr naxış iki sıra kərpicdən yığılmış və kərpic

düzümləri bir-biri ilə svastika şəklində birləşərək mürəkkəb kompozisiya yaratmışdır. Güney səthin qalın dayağına həkk olunan bu ornament digər üzlərdə təkrar olunmamışdır. Eyni naxış motivinin bir qədər sadə forması Yusif Küseyr oğlu türbəsinin qapı olan səthində, qapının yanlarında tətbiq olunmuşdur (Şəkil 2). Biz Möminə xatın türbəsində bu motivin daha təkmil və mürəkkəb kompozisiyadan ibarət olan forması ilə rastlaşırıq. Naxçıvan memarlıq məktəbinin digər bir möhtəşəm abidəsi olan Gülüstan türbəsində, sərdabəni qülləvari hissədən ayıran stalaktit qurşağından əhatə edən meandr motiv işlənmişdir (Şəkil 3). Gülüstan türbəsində tətbiq edilən meandr motivi bir qədər sadəliyi, eyni zamanda ahəngdarlığı ilə fərqlənir.



**Şəkil 2. Yusif Küseyr oğlu türbəsində meandr motivi**

Adı çəkilən abidələr üzərində rast gəlinən meandrın tarixini araşdırdıqda görürük ki, bu motiv heç də Avropa motivi kimi deyil, sırf xalqımızın qədim mədəniyyəti ilə bağlı olan dekorativ bəzək elementidir. Tədqiqatçıların fikrinə görə, bu motiv qədim zamanlardan mövcud olmuşdur. Meandrın qədim dövr Azərbaycan dekorativ-tətbiqi sənət nümunələrində geniş yayılmasına baxmayaraq, Naxçıvanda bu tip ornament hələlik sayca azdır. Bu tip ornamentin ən qədim nümunəsi Naxçıvanın qədim dövr dulusçuluq nümunələri arasında yalnız bir örnəklə müşahidə olunur. Qabın hazırlanma xüsusiyyətləri, üzərindəki motivlər lokal xüsusiyyətlərə malik olsa da meandr motivinə görə o biri qablardan seçilir. Bu dəyərli tapıntı arxeoloq Vəli Baxşəliyev tərəfindən təsadüfən Şahtaxtıdan tapılmışdır (3, s. 31, şəkil 3). Bikonik formalı kasanın gövdəsinin yuxarı qismi paralel xətlər arasına alınmış həndəsi motivli ornamentlə naxışlanmışdır.



**Şəkil 3. Gülüstan türbəsində meandr motivi**

Naxışlar qara və qırmızı rənglə qabın sarı rəngdə boyanmış səthinə çəkilmişdir. Onlar bitişik romblar, torlu düzbucaqlılar və digər ornamentlərdən ibarətdir (Şəkil 4). Məlum olduğu kimi, polixrom boyalı keramika Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə edən Orta Tunc dövrünün Boyalı qablar mədəniyyəti üçün xarakterik olmuşdur (2, s. 82-125). Bu kasanın naxışlanmasında istifadə olunan torlu dördbucaqlar Təzəkənd, Yaycı və Həsənsu nekropolundan aşkar olunmuşdur. Lakin meandr motivə bu tip qablarda ilk dəfədir ki rast gəlinir.

Meandr motivi Azərbaycanda geniş yayılan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika (12, s. 99, tablo III) məmulatı üzərində geniş tətbiq edilmişdir (Şəkil 5). Tədqiqatçıların fikrinə görə, olduqca müxtəlif formalarına rast gəlinən bu motiv öz adını Türkiyənin Menderes (Meandr) çayının adından götürmüşdür. İlan kimi qıvrılaraq axan bu çayın adı ornamentə yunanlar tərəfindən verilmiş və dünya xalqlarının leksikonuna latıncadan keçmişdir. Buna baxmayaraq yuxarıda göstərdiyimiz faktlar Naxçıvanın

Türk-islam sənətində rast gəlinən bu ornamentin tarixi köklərinin bu ərazidə formalaşan qədim mədəniyyətlərlə bağlı olduğunu sübut edir. Çünki bu mədəniyyətlər Yunan və Roma mədəniyyətindən çox-çox qədim dövrlərə aiddir. Şərqi Qafqaz keramikalarını araşdıran Hüseynova M.A. XXVIII tabloda spiral naxışın həndəsiləşərək meandr formasına keçdiyini göstərmişdir (12, s. 124).



Şəkil 4.Meandr naxışlı Şahtaxtı polixrom kasası



Şəkil 5. Meandr naxışlı Xocalı-Gədəbəy keramikası

Meandr motivi həmçinin Naxçıvanın qədim tunc əsərlərində də geniş tətbiq edilmişdir. Şahtaxtı, Muncuqlutəpə, Sarıdərə, Qızılburun və Kolanıdan aşkar olunan bəzək əşyalarının bir qismi meandr motivi ilə naxışlanmışdır (Şəkil 6).



**Şəkil 6. Kolanı nekropolunun meandr naxışlı boyunbağıları**

Araşdırmalar göstərir ki, Azərbaycanın dekorativ-tətbiqi sənət nümunələrində meandr motivi uzun müddət istifadə olunmuşdur. XIX əsrə aid xalça nümunələrində rast gəlinən meandr motivi bunu bir daha təsdiq edir (Şəkil 7).

**Şəkil 7. Meandr naxışlı şəddə (Naxçıvan Xalça Muzeyi)**



Göründüyü kimi, Naxçıvanın Türk-islam sənətində yadda qalan meandrın tarixi kökləri qədim dövrə aiddir. Meandr sözünün Azərbaycan dilində qarşılığı dolamaqarmaq naxışı (dolanqaç) kimidir. Xalq arasında bu tip naxışa tazıqaçışı da deyilir (1, s. 36). Türkiyə ərazisində isə bu motiv su yolu adı ilə tanınmışdır. Ehtimal ki, meandr motivi su stixiyası ilə də bağlı olmuşdur. Su motivi qədim dövr dekorativ tətbiqi sənət nümunələrdə ən çox rast gəlinən naxışlardan biridir. Canlılar aləmini, yaşamı simvolizə edən qiymətli elementlərdən biri kimi qədim dövr yaradıcı insanı tərəfindən stilizə edilərək müxtəlif şəkildə mədəniyyət abidələri üzərinə həkk edilmişdir. Tarixin inkişaf mərhələləri bir-birini əvəzlədikcə bu motivin də inkişafına təkan vermişdir. Əgər əvvəllər su motivi kortəbii şəkildə sadə düzxətt, dalğalı xətt şəkilində təsvir edilirdisə, zamanla daha dəyişik və mürəkkəb variantları işlənməyə başlanmışdır.

Qədim dövrdən bu günümüzə kimi dayanıqlaşan əsaslı fikirlərdən biri dörd ünsürlə bağlıdır. Bunlar od, su, hava və torpaqdır. İnsan üçün su təmizliyin, paklığın, saflığın, uzunömürlülüyün açarı olmuşdur. Folklor nümunələrində Makedoniyalı İskəndərlə bağlı "Dirilik suyu" ilə tanınan qiymətli bir su haqqında da danışılır. Dirilik suyunun əfsanəvi olmasına baxmayaraq insanlar hər zaman onun axtarışına çıxmışdılar. Amma bu əfsanənin özündə də bir hikmət vurğulanır. Yəni sağlamlığın, uzunömürlülüyün açarı təmiz sudadır.

Möminə xatın türbəsinin meandr naxışında olduqca önəmli bir xüsusi diqqəti cəlb edir. Əgər diqqət etsək burada meandr ornament çərxifələk rəsimlərinin birləşməsi şəklində icra edilmişdir. Çərxifələk motivinə Naxçıvanın qədim dulusçuluq nümunələrində rast gəlinir (10, s. 301-307). Bu tip ornamentin ən qədim nümunələri I Kültəpə abidəsindən aşkar olunan keramika nümunələri üzərində əks olunmuşdur (Şəkil 8). Onların biri Erkən Tunc dövrünə (Şəkil 8, 2), digəri isə Orta Tunc dövrünə aiddir (10, s. 157)



**Şəkil 8. Ordubad cümə məscidinin mehrabında "Əli" sözünün çərxi fələk şəklində yazılışı**

Çərxi fələk rəsmləri qədim dulusçuluq nümunələri ilə yanaşı Türk-islam mədəniyyətinə aid maddi-mədəniyyət əsərlərində də tətbiq edilmişdir. Ordubad şəhəri ərazisindəki Cümə məscidinin mehrabında çarpaz şəkildə Əli sözünün dörd dəfə işlənməsi (Şəkil 8) nadir rast gəlinən orijinal formalarından biridir. Nizami Muradoğlunun araşdırmalarına əsasən Əli sözünün çərxifələk formasında yazılması bu mənanı ifadə edir – Dünya dövr etdikcə Əlinin də xeyir əməlləri nəsildən nəsilə yaşayacaqdır (7, s. 94).

Svastika təsvirlərinə Gəmiqayada da rast gəlinmişdir. Svastika ilə dörd yerə bölünən dairə Günəşin geniş yayılmış simvollarındandır. N.Müseyibovun fikrinə görə, xaçla dörd yerə bölünmüş dairə Günəşin öz şüalarını dünyanın dörd tərəfinə yayması mənasını ifadə etmişdir (5, s. 27). Sibir və Mərkəzi Asiya xalqlarının da inanclarında svastika Günəşi simvolizə etmişdir (13, s. 15). B.A.Rıbakovun fikrinə görə xaçla dörd yerə bölünən dairə dünyanın dörd tərəfini simvolizə etmişdir (14, s. 36). Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qablar üzərindəki insan və həyat ağacı təsvirlərinin svastika ilə tamamlanması svastika təsvirlərinin solyar işarə olduğunu deməyə imkan verir (12, s. 125-126).

Araşdırmalara əsasən deyə bilərik ki, istər qədim sənət nümunələrində, istərsə də Türk-İslam sənətində təsvir olunan meandr ornament polisemantik məzmuna malik olmuş, xalqımızın inanclarını əks etdirmişdir. Müsəlman mədəniyyətinin çiçəkləndiyi dövrdə isə bu tip ornamentlərə həm də islami məzmun verilmişdir.

## ƏDƏBİYYAT


1. Abdullayeva M. Xalçaçılıq terminlərinin izahlı lüğəti. Bakı: Bakı Dövlət Universiteti, 2002, 36 s.
2. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Baxşəliyev V. Naxçıvan ve Doğu Anadolunun Orta Tunç Çağı kültürü / II Uluslararsı Ahlat-Avrasiya Bilim, Kültür ve Sanat Sempozyumu, İstanbul: Bitlis Eren Universitesi, 2014, s. 29-33.
4. Qiyasi C. Nizami dövrünün memarlıq abidələri. Bakı: İşıq, 1991, 256 s.

5. Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti (IV-XVI əsrlər). Bakı: Elm, 1978. 208 s.
6. Museyibov N. Qobustan və Gəmiqaya təsvirlərində bir qrup işarə haqqında. Bakı: AQOTP, 1992. s. 26-27.
7. Muradov N. Vətən dərdi. I hissə. Bakı: Nurlan, 240 s.
8. Naxçıvan abidələri ensiklopediyası. İstanbul: 2008, 520 s.
9. Salamzadə Ə.B., Məmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
10. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
11. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
12. Гусейнова М.А. Керамика Востогного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку: Элм, 1989, 128 с.
13. Ксенефонтов Г.В. Христес, шаманизм и христианство. Иркутск: 1929, 144 с.
14. Рыбаков Б.А. Космогония и мифология земледельцев энеолита. Советская археология, 1965, № 1, с. 13-33.
15. Топоров В.Н. Крест. Мифы народов мира. Т. 2, М.: Наука, 1982, 368

## РЕЗЮМЕ

**Физзе КУЛИЕВА**

### ИСТОРИЧЕСКИЕ КОРНИ МОТИВА МЕАНДРА НА ПАМЯТНИКАХ ТУРКСКО-ИСЛАМСКОЙ КУЛЬТУРЫ НАХЧЫВАНА

Развитие в Азербайджане туркско-исламской культуры начиная с IX века способсьвовал появлению монументальных памятников искусства. Памятники туркско-исламской культуры, особенно мавзолеии отличаются совершенством архитектурного решения и богатством орнаментального мотива. Одним из богатых орнаментальных мотивов, встречаемых на памятниках туркско-исламской культуры является меандр. Мотив меандра, который историческими корнями входит в древние периоды, встречается на различных предметах искусства. На основе исследований можно предполагать, что меандр, который изображен на древних бытовых предметах, а также на предметах искуства туркско-исламской культуры имел полисемантичесий смысл и отражал верование нашего народа. В период расцвета исламской культуры этому орнамент приобретал также исламское содержание.

**Ключевые слова:** Нахчыван, туркско-исламская архитектура, мовзолей, памятник, орнамент, мотив, меандр.

## SUMMARY

**Fizze GULIYEVA**

### THE HISTORICAL ROOTS OF MEANDER MOTİF ON TURKISH-ISLAMIC CULTURE MONUMENTS OF NAKHCHIVAN

Development in Azerbaijan of Turkish-Islamic culture since 9th century to emergence of monumental monuments of art. Monuments of Turkish-Islamic culture, especially mausoleum, differ in perfection of an architectural concept and richness of ornamental motive. The meander one of the rich ornamental motives met on monuments of Turkish-Islamic culture. The motive of a meander which historical roots enters the ancient periods meets on various objects of art. On the basis of researches it is possible to assume that the meander which is represented on ancient household objects and also on objects of art of Turkish-Islamic culture made many semantic sense and reflected belief of our people. During blossoming of Islamic culture to it the ornament acquired also Islamic contents.

**Keywords:** Nakhchivan, Turkish-Islamic architecture, mausoleum, monument, ornament, motive, meander.